# Qəhrəmanlar əbədi yaşayırlar



**Tarix boyu xalqımız dəfələrlə yağı düşmənlərin vəhşi hücumlarına məruz qalıb. Hər dəfə də ana torpağımız igid oğullarımızın, dəyanətli qızlarımızın, bir sözlə, qeyrətli vətən övladlarımızın hünəri, şücaəti sayəsində düşmən tapdağından azad olmuşdur.**

Doğma el-obamızın başının üstünü qara buludlar aldığı ilk günlərdən Tovuz rayonunun Vahidli kəndinin igid övladları, 1989-cu ildən ov tüfənginə sarılaraq könüllülük prinsipi əsasında xalqımızın güvənc yeri olan milli ordu sıralarına daxil olaraq erməni quldurları ilə ölüm-dirim savaşına başladılar. Bu igidlər Tovuz rayonunun sərhəd bölgələrini qorumaqla yanaşı, hərbi strateji əhəmiyyətə malik olan "Boz təpə" adlanan yüksəklikdə özlərinə məskən salmışdılar.

Belə qəhrəmanlardan biri də mərhum tağım komandiri Hüseyn Aslan oğlu Aslanov olmuşdur. O, 1955-ci ildə Tovuz rayonunun dilbər guşələrindən olan Vahidli kəndində dünyaya göz açmışdır. Hüseyn orta məktəbi müvəffəqiyyətlə başa vurduqdan sonra 1975-ci ildə Sovet ordusu sıralarına çağrılmış və ordu sıralarından 1977-ci ildə tərxis olunduqdan sonra doğma el-obasına qayıtmışdır. O, geodeziya-kartoqrafiya işlərində işləməyə başlamışdır, bu sahədə də rəhbərliyin və iş yoldaşlarının dərin ehtiramını qazanmışdır.

Qeyd etmək lazımdır ki, hələ ermənilərin torpağımıza basqınlarının ilk vaxtlarında, öz doğma yurd-yuvalarını qorumağa başlayan Vahidli kəndinin cəsur 11 nəfərlik ilk qaranquşları sırasında Hüseyn Aslan oğlu da olub.

Bu igidlər keçilməz meşələrdə, sərt dağ sıldırımlarında, sərhədboyu keşikçi məntəqələri yaradaraq, gecə-gündüz torpaqlarımızın keşiyində dayanmışlar. Mərhum Hüseyn Aslanov gülərüz, mehriban, təvazökar olmaqla yanaşı, döyüşçü yoldaşlarına kömək etməkdən və döyüşün sirlərini öyrətməkdən usanmazdı.

Çətin günlər arxada qalmağa başladı, Milli Ordumuz get-gedə gücləndi. 1990-cı ilin əvvəllərində könüllü döyüşçülərin rəsmiləşdirilməsinə başlandı. 1992-ci ilin avqust ayından etibarən Hüseyn Aslanov rəsmi şəkildə tağım komandiri kimi fəaliyyətə başlamışdır. Tağım komandiri Hüseyn Aslanovun rəhbərliyi altında "Qara Qaya", "Boz təpə", "Tək Armud", "Sulu" deyilən müxtəlif sərhəd bölgələrində çox ağır döyüşlər keçirərək ləyaqətlə, cəsarətlə erməni quldurlarını öz yerlərinə oturtmuşlar, bəzən də quduzlaşmış düşmənin başını məhz onların öz düşərgəsində əzmişdilər. Bununla da Azərbaycan oğullarının qorxmazlığını, qəhrəmanlığını bir daha göstərərək düşmənə ciddi zərbələr endirmişlər.

Gədəbəy rayonunun ərazisində yerləşən Başkəndin ermənilərdən təmizlənməsi ilə bağlı komandanlıq Hüseyn Aslanova xüsusi döyüş tapşırığı verir. O, rəhbərlik etdiyi bölmə ilə ağır döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirərək, Başkəndin ermənilərdən təmizlənməsində xüsusi şücaət göstərərək yenidən döyüş bölgəsinə qayıtmışdı.

Ağır döyüş günlərinin birində, erməni quldurlarının aramsız hücumu başlanır, tağım komandiri Hüseyn Aslanov tabeçiliyində olan döyüşçülərə lazımi tapşırıqlar verir, çox gərgin və uzun müddətli döyüşlər gedir, əsgərlərdən biri ciddi bədən xəsarəti alır. Hüseyn güllələrin yağış kimi yağmasına baxmayaraq, yaralanmış əsgərin ermənilərin əlinə keçməməsi üçün sürünə-sürünə, kol-kosların və qayaların arası ilə qaynar bölgəyə daxil olur, onu atəş altından kənara çıxarır, onu qolları üstünə alaraq, qan axan hissəsini sinəsinə sıxaraq hərbi hissəyə çatdırır və bu səylərə baxmayaraq, yaralı əsgər şəhid olur. Bir az sonra isə bu hadisədən təsirlənən və dərin psixoloji gərginlik keçirən Hüseyn ürək infarktı keçirir. O tezliklə sağalıb döyüş yoldaşlarının yanına qayıtmağa tələssə də, əbədi olaraq gözlərini yumur.

Mərhumun həyat yoldaşı Zoya Abdullayeva gecə-gündüz böyük çətinliklə balalarını böyüdüb, onlara təhsil verir və onların ailə qurmasına nail olub. Hüseyn Aslanovun qəhrəmanlıq yolu, xalqımızın şərəf daşıyıcısı olan Silahlı Qüvvələrimizin parlaq örnəklərindən biridir. Mərhumun keçmiş döyüş yoldaşları, həmyerliləri, ümumiyyətlə, onu tanıyan hər kəs onun qəhrəmanlığından danışır, tez-tez onun qəbirüstü abidəsini ziyarət edir. Hüseyn Aslanovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**